# Bura Odlar yurdu Azərbaycandır

Bakı! Odlar yurdu — nağıl, dastandır,
Hər yanı laləzar bir gülüstandır,
Yaddaşı ən qədim daş Qobustandır,
Bura Odlar yurdu Azərbaycandır!

Barlı-bərəkətli min neməti var,
Şeirli, nəğməli məhəbbəti var,
Dənizdə buruqlar səltənəti var,
Bura Odlar yurdu Azərbaycandır!

Halal ruzusu var, duz-çörəyi var,
Min ləziz, ətirli, öz xörəyi var.
Onun dünya boyda bir ürəyi var,
Bura Odlar yurdu Azərbaycandır!

Göylərlə birləşən uca dağı var,
Min nemət yetirən bağça-bağı var,
Bu gün Avropadan min qonağı var,
Bura Odlar yurdu Azərbaycandır!

Mehriban görüşün, danışın, dostlar,
Can olub, min cana qarışın, dostlar,
Meydanda ər kimi yarışın, dostlar,
Bura Odlar yurdu Azərbaycandır!

"Bakı! Azərbaycan! İşığa bir bax!"
Varlığı kəhkəşan, hüsnü çılçıraq,
Ondakı möhtəşəm tamaşaya bax,
Bura Odlar yurdu Azərbaycandır!

Kür çayı damarda çağlayan qanım,
Bakı! Azərbaycan ürəyim, canım,
"Bakı-2015" son həyəcanım,
Bura Odlar yurdu Azərbaycandır!

Vətən gülür, torpaq gülür, el gülür,
Çəmən gülür, çiçək gülür, gül gülür,
Ağız gülür, dodaq gülür, dil gülür,
Bura Odlar yurdu Azərbaycandır!

Min bir büsat qurub Vətən torpağı,
Göydə dalğalanır Dövlət bayrağı,
Dünyanı dolaşır, səsi, sorağı,
Bura Odlar yurdu Azərbaycandır!

Şeyx Nizaminin, Səməd Vurğunun,
Üzeyirin, Cavidin, Həsənoğlunun,
Yurdudur Babəkin, qoç Koroğlunun,
Bura Odlar yurdu Azərbaycandır!

Qoy bütün Avropa axışıb gəlsin,
Sevinci, fərəhi göyə yüksəlsin,
Əsl həqiqəti qoy dünya görsün,
Bura Odlar yurdu Azərbaycandır!

Gör necə illəri yaşadı Bakı,
Neçə əsrlərin yaşıdı Bakı,
Dünya bir üzüksə, qaşıdı Bakı,
Bura Odlar yurdu Azərbaycandır!

Yansın Qoca Şərqin azadlıq şamı,
Coşqun könüllərdə, eşqi, ilhamı,
Bir ahəng üstündə oxusun hamı:
Bura Odlar yurdu Azərbaycandır!

**Tofiq SALEH,**
**Bakı 24.05.2015.**